# Yaşamımın xeyirxahlıq mənası



*Nəcməddin MÜRVƏTOV*

## Mənа qataq günlərə

Yedik, içdik, yatdıq, durduq,
Başımızı sözlə yorduq,
Ona dedik, bundan sorduq.
Bu da işmi, ya ki əməl?
Mənа qataq günlərə gəl.

Özümüz də bilə-bilə
Illərimiz gedir yelə,
Hey uyuruq fitnə-felə.
Addımbaşı çıxır əngəl,
Mənа qataq günlərə gəl.

Gözəllikdən alaq ilham,
Nəfsimizi eyləyək ram,
Yaradandan diləyək kam.
Ucalığa quraq təməl,
Mənа qataq günlərə gəl.

Qəlbimizə sevgi salaq,
Kin, nifrətə zəfər çalaq,
Məhəbbətdən bihuş olaq.
Nəşə duyaq daha gözəl,
Mənа qataq günlərə gəl.

Nəcməddinəm, tək sözüm var,
Deyim, olsun cahana car,
Insan ömrü çox qısa, dar.
Bir də gördün gəldi əcəl,
Mənа qataq günlərə gəl.

## YORULMUŞAM ALDATMAQDAN ÖZÜMÜ

Röyalarda rahatlığım həmişə,
Ayıqlığım ağrı-acı əndişə.
Gizlin-gizlin sızlamağım iş, peşə,
Tapmıram ki dərdlərimə çözümü,
Yorulmuşam aldatmaqdan özümü.

Tək-tənhayam saysızların içində,
Qəlb boşluğum intəhasız biçimdə.
Uğursuzam həmdəm adlı seçimdə,
Kimə deyim köksü dələn sözümü,
Yorulmuşam aldatmaqdan özümü.

Naz çəkirəm, heç nazımı çəkən yox,
Qəlb evimi abad edən, tikən yox,
Ürəyimə sevinc, fərəh əkən yox,
Artıran çox köksdə odum, közümü,
Yorulmuşam aldatmaqdan özümü.

Çəkilirəm dönə-dönə sınağa,
Tuş gəlirəm niyə, nədən qınağa?
Dönüm geri, ya ki gedim qabağa,
Çaş-baş qalıb hey döyürəm gözümü,
Yorulmuşam aldatmaqdan özümü.

Varlığımı əldən salır bu halım,
Düzəlməyə yön almayan əhvalım,
Düşüncəmi yorur saysız sualım,
İtirirəm canda tabı, dözümü
Yorulmuşam aldatmaqdan özümü.

## Mən buyam

Ömrüm boyu bir kimsənin qəlbinə
Səy eylədim, toxunmayım azacıq.
Özgə ağrı-acısına, qəlb binə
Oldu, çıxdım tək özümdən mən acıq.

Ötüşmədi bircə günüm əzabsız,
"O" da razı qaldı məndən "bu" da həm.
Ondan-bundan diləyimsə cavabsız
Qaldı, həm də çox-çox işim kəsir, kəm.

"Yox" deməyi bacarmadım dönə dil,
"Hə"lərimin zillətini çəkdim hey.
İlğımtəki ötüb keçdi gün, ay, il,
Hərəsindən iz yadigar bir giley.

Məramım bu, dayaq duram hər kəsə,
Əməlimdən xeyir görə çoxu çox.
Nəfsim toxdur, bil qaneyəm az, bəsə,
Etdiyimə gözləmirəm əvəz yox.

Yaşamımın xeyirxahlıq mənası,
Şükürdəyəm, əlim göydə Allaha.
Yox, deyiləm səhvlərimi danası,
Nöqsanımı səbəb olan günaha.

Heç xətərim toxunmayıb heç kimə
Qəsdən, vallah, and içərəm buna mən.
Vicdanıma, içimdəki hakimə,
İzahatım asan olur, etmə zənn.

Yaxşı, ya pis, ver həqiqi qiyməti,
Güzəştsiz ol, haqqa söykən belədə.
İstəmirəm saxta, ucuz şöhrəti,
Artıq nəsə yox, gətirmə dilə də.

## İLHAMIM

Darıxıram, ilham, məni
Nə olar apar söz dünyama.
Qov başımdan duman, çəni,
Ruhum yetər onda kama.

Qoy bələnsin nura anım,
Duyğulanım, xəyallanım.
Qıy,həsrətdən alovlanım,
Hey əriyim, dönüm şama.

Hisslərimə həzinlik qat,
Qoyma bir an sakit, rahat.
Varlığımı titrət, oynat,
Yaş gözümdən dama- dama.

İnləməklə könül sazım,
Söylə səssiz, mən də yazım.
Hikmətindən qıyma azım,
Şeirim gəlsin dada, tama.

Uç, qanadlan, eylə pərvaz,
Pərimə dön, et işvə, naz.
İlahidən ün, səs, avaz,
Ol, məkanım sonsuz səma.

Darıxıram, ilham, məni
Nə olar apar söz dünyama.
Qov başımdan duman, çəni,
Ruhum yetər onda kama.

## XEYİRXAH

Yaxşılıqdan duyar ləzzət,
Sevinc paylar aşkar, xəlvət,
Bir kimsəyə qoymaz minnət,
Qəm, kədəri təkcə çəkər,
Xeyirxahsa insan əgər.

Taledəndir ruzi, payı,
Keşməkeşli günü, ayı,
Səxavətdə yox heç tayı,
Üç, beşə yox minə dəyər,
Xeyirxahsa insan əgər.

Darmacalda durar dayaq,
Sərvaxt olar, qalar oyaq,
Baş girləməz heç bir sayaq,
Yol göstərər sanki ülkər,
Xeyirxahsa insan əgər.

Söz verdisə edəcək bil,
Vədəsinə xilaf deyil.
Ər oğlu ər, müdrik, aqil
Vətəninə igid əsgər,
Xeyirxahsa insan əgər.

Çox faydalı nəsihəti,
Ülvi eşqi, məhəbbəti,
Ləziz təhnəsi, töhməti,
Sözü yağa, bala bükər,
Xeyirxahsa insan əgər.

## UZAQLAŞIR CAVANLIQ

Ehtiyatla danışıram, dinirəm,
Yavaş-yavaş göydən yerə enirəm,
Azmışammış öz yoluma dönürəm,
Ağlım deyir, tələs, tez al halallıq,
Deyən, məndən uzaqlaşır cavanlıq.

Əvvəlkitək daha coşub daşmıram,
Qəfil sözdən diksinmirəm,çaşmıram,
Əməlimdə hədd-hüdudu aşmıram,
Çəkilibdir başımdakı dumanlıq,
Deyən, məndən uzaqlaşır cavanlıq

Uçmur ürək, heç çırpınmır quş kimi,
Ağrılarda inildəmir zil simi,
Bacarıram yığım, boğum hirsimi,
Aramıram yeməyimdə yavanlıq,
Deyən, məndən uzaqlaşır cavanlıq,

Əl dirəyib otururam, dururam.
Eşitməyib deyiləni soruram,
Çoxlarını nəsihətlə yoruram,
Yaxşılığım dönüb olur yamanlıq,
Deyən, məndən uzaqlaşır cavanlıq.

Nəcməddinəm, bir ömürdür sürürəm,
Lağ eyləyir həyat, baxıb gülürəm,
Qocalığa min tədarük görürəm,
Ona yetib-yetməməyim gümanlıq,
Deyən, məndən uzaqlaşır cavanlıq.

## Görünürəm necə varam

Yox dilimdə kəlmə yalan,
Ortalıqda nəyim, olan.
Görmərəm iş xəcil salan,
Ağım ağdır, qara qaram,
Görünürəm necə varam.

Əvəzsizəm etibarda,
Yoxla məni çətin, darda,
Yetişərəm, olsam harda,
Qaya aşar, dağ yararam,
Görünürəm necə varam.

Saf, təmizəm əməlimdə,
Haqq-hesab gedər gəlimdə,
Bu kökümdə, təməlimdə,
Bacarmıram yeyəm haram,
Görünürəm necə varam.

El-obama vurğun kəsəm,
Ilhamımla ünəm, səsəm,
Həqiqəti deyən kəsəm,
Dözümlüyəm, xoşrəftaram,
Görünürəm necə varam.

Bilmirəm ki, yaxşıyam, pis,
Üstün nəyim, nəyim naqis,
Deyir ruhum, duyğular, hiss,
Çox savablı günahkaram,
Görünürəm necə varam.

## Dünya "cənnətdir"

Çalıb, çapıb talamasaq,
Alovlara qalamasaq,
Bir-birini dalamasaq,
Dünya elə, "cənnətdir" də.

Gözümüzü tutmasa tor,
Görə-görə olmasaq kor,
Ansaq hər gün məzar var, gor,
Dünya elə "cənnətdir" də.

Uymasaq şərə, böhtana,
Görməsək iş kimsə yana,
Qəsd etməsək məhvə cana,
Dünya elə "cənnətdir" də.
Nəfsimizə olmasaq qul,
Ağlımızı almasa pul,
Aramasaq "al"a üsul,
Dünya elə" cənnətdir" də.

Çaşdırmasa dərki qürrə,
Qoymağıyla ruhu girə,
Hay salmasaq nahaq yerə,
Dünya elə "cənnətdir" də.

Can deməklə eşitsək can,
Keçirsək səhvə həyəcan,
Dönər olar bir gülüstan,
Dünya elə "cənnətdir" də.

## Bax ümidlə gələcəyə, sabaha

Çətinliklər olub, olur, olacaq,
Şəksiz ki, haqq öz yerini tapacaq,
Xoş, ya acı, bil xatirə qalacaq.
Şən, şux yaşa, yox, köklənmə vay-aha,
Bax ümidlə gələcəyə, sabaha.

Kim deyirsə dünya batır, inanım?
Ümidsizsən, sonun çatır, inanım?
And içsələr bəxtin yatıb, inanım?
Inan təkcə yaradana-Allaha,
Bax ümidlə gələcəyə, sabaha.

Olazları anda olan edən var,
Qalmazları sonda qalan edən var,
Dolmazları sonda dolan edən var.
Mümkünsüzdür demə, batma günaha,
Bax ümidlə gələcəyə, sabaha.

Sansan düşdün bir ömürlük zərərə,
Uduzmuşam demə, yox-yox bir kərə,
Nəfəsin də kəsilirsə çək nərə.
Belədə də dön özünə pənaha,
Bax ümidlə gələcəyə, sabaha.

Ol arxayın düşüncənə, ağlına,
Qulaq asma hər acizin nağılına,
Bax, həyata möhkəm-möhkəm bağlan a,
Bu son sözüm təkrarımda bir daha,
Bax ümidlə gələcəyə, sabaha.

## Mən yazmadım taleyimi

Taleyimi mən yazmadım Tanrı yazdı,
Olanını, olmazını, yaxşı-pisi.
Istəyim nə, diləyim nə, inanmazdı
Kimsə, desəm ürəyimi yaran hissi.

Umduqlarım üzaq qaçdı sanki məndən,
"Edəcəyəm" dediyimə olmadı yol.
Seyr eylədim "lazımlı"nı uzaq, gendən,
Gərəksizlər üzərimə yürüdü bol.

Əzab verdi köksümdəki ağrı-acı,
"Əlçatmaz"a baxıb qaldım yana-yana.
Dərd yaşadım, tapılmadı bir əlacı,
Görən dedi:"Bəxtəvərdə bax imkana".

Şikayətim özümdəndir tək özümə,
Aramıram səbəkar kim, günahkar kim.
Səhvlərimdən bax, qoymuşam kül gözümə,
Cəzasını qalan ömrü gərək çəkim.

Taleyimi mən yazmadım, Tanrı yazdı,
Yox, demədi yum gözünü atıl oda.
Öz əllərim ayağıma quyu qazdı,
Mənа varmı de indiki aman-dada.

